*5 iyun Su Təsərrüfatı və Meliorasiya İşçilərinin peşə bayramıdır*

# Bütün qüvvələr bol məhsul yetişdirilməsinə səfərbər olub

5 iyun Su Təsərrüfatı və Meliorasiya İşçilərinin peşə bayramı – Meliorator günüdür.

Bayram ərəfəsində Göygöl Suvarma Sistemləri İdarəsinin və Samux Suvarma Sistemləri İdarəsinin rəisləri ilə görüşdük. Onlar bu peşə bayram ilə əlaqədar öz fikirlərini bizimlə bölüşdülər.

**Göygöl rayon Suvarma Sistemləri İdarəsinin rəisi İlqar Məhərrəmov** qeyd etdi ki, ölkə iqtisadiyyatının bütün sahələri kimi kənd təsərrüfatı da özünün keyfiyyətcə yeni yüksəliş mərhələsinə qədəm qoyub. Əkin dövriyyəsi genişlənib, məhsuldarlıq yüksəlib, sahəyə xidmət edən qurumlarla işgüzar, səmərəli əlaqələr formalaşıb. Bu baxımdan meliorasiya və su təsərrüfatı işçilərinin əkinçilərə göstərdikləri köməyin əhəmiyyəti və miqyası ildən-ilə artmağa başlayıb. Elə bunun nəticəsidir ki, Azərbaycan Prezidenti İlham Əliyev hər il iyun ayının 5-ni meliorasiya və su təsərrüfatı işçilərinin peşə bayramı — "Meliorator günü" kimi təsis edilməsi haqqında sərəncam imzalayıb. Melioratorlar bunu ölkə rəhbəri tərəfindən respublikada məhsul bolluğu yaratmaq kimi müqəddəs və şərəfli işlərində onların əməyinə verilən yüksək qiymət kimi dəyərləndirirlər. Onu xüsusilə qeyd etmək lazımdır ki, su təsərrüfatı və meliorasiya



işçilərinin əməyi çox qiymətli və şərəflidir. Məhz onların əməyi ilə susuz ərazilər su ilə təmin olunur, şoran sahələr duzlardan təmizlənir, bataqlıqlar qurudulur, bəndlər və dambalar tikilməklə çayların axınları tənzimlənir və ölkə əhalisinin ekoloji cəhətdən təmiz ərzaq məhsulları ilə etibarlı təminatı üçün əlverişli şərait yaradılır. Məlumdur ki, dövlət başçısı ərzaq təhlükəsizliyinin əsas sahəsi - taxılçılığın inkişaf etdirilməsi üçün istifadə olunmayan torpaqların əkin dövriyyəsinə cəlb edilməsi barədə müvafiq orqanlara tapşırıqlar vermişdir. Aqrar bölmənin dinamik və davamlı inkişafını təmin etmək üçün suvarma və meliorasiya işçiləri var qüvvələrilə çalışırlar. Bu sahədə işlərin görülməsi üçün texnikanın köməyi əvəzedilməzdir. Belə ki, texnika insanların əməyini yüngülləşdirir və səmərəli edir. Geniş tarlaları suvarmaq, becərmək, yetişdirilən məhsulu yığmaq texnikanın gücü ilə başa gəlir. Bu işlərin görülməsi üçün suvarma kanalları, stasionar stansiyaları, nasos aqreqatları və qurğular dinamik fəaliyyətdədir. Balansda olan ekskavator-buldozer, avtonəqliyyat və digər texnikalar, təcrübəli mexanizatorların istifadəsindədir ki, bu da görüləcək işlərin yüksək səviyyədə aparılmasına imkan yaradır. Mövcud texnikaların köməyi ilə ötürücü stansiyalar daim saz vəziyyətdə saxlanılır, sağ və sol sahil divarları bərkidilir, beton üzlüklər təmir olunur, lildən və alaq otlarından təmizlənir. Rayon icra hakimiyyətinin və Respublika Meliorasiya və Su Təsərrüfatı ASC rəhbərliyinin bu işdə yaxından köməyi əvəzsizdir. Suvarma işçiləri bu diqqət və qayğının müqabilində daha da əzmlə çalışırlar. Göygöl Suvarma Sistemləri İdarəsinin işçiləri bütün qüvvələrini səfərbər edərək, bol məhsulun əldə olunması üçün bütün qüvvələrini sərf edəcəklər.

**Samux rayon Suvarma Sistemləri İdarəsinin rəisi Gülağa Bağırov** 5 iyun "Meliorator günü "münasibəti ilə şərəfli peşə sahibləri olan, bütün su təsərrüfatı və meliorasiya işçilərini təbrik edərək onların çətin və şərəfli işlərindən danışdı.

Bildirdi ki, qabaqcıl aqrar rayonlardan olan Samuxda da əhalinin ərzaq təminatını yüksəltmək üçün, torpaqla-



ra həyat verən su təminatının təşkili vacib məsələlərdəndir. Ona görə də idarəmizin kollektivi gecə-gündüz sahələrdə olur, bol məhsul götürülməsi üçün əzmlə çalışır.

Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı üzrə Dövlət Proqramı kollektivin əsas hədəfi olmaqla bütün mövcud imkanlardan istifadə olunmuşdur. Ərzaq təhlükəsizliyinin təminatını və aqrar bölmənin dinamik və davamlı inkişafını təmin etmək üçün idarənin işçiləri bütün qüvvələrini səfərbərliyə almışlar.

Müasir dövrdə digər sahələr kimi, bu işlərin görülməsi üçün texnikanın gücündən səmərəli istifadə olunur. Geniş tarlaları suvarmaq, becərmək, yetişdirilən məhsulu vaxtında yığmaq texnikanın gücündən və hazırlığından çox asılıdır. Məsələn, suvarma kanalları, stasionar stansiyaları, nasos aqreqatları və qurğular saz vəziyyətdə saxlanılır. Kanallar əvvəlcədən lildən təmizlənib, sahilbərkitmə və selə qarşı torpaq, kol-kosdan təmizləmə işləri görülmüşdür. Eyni zamanda, yararsız boru kəmərləri təmir olunmuş, işlək vəziyyətə gətirilmişdir. Hətta çaylardan gələn sel sularından da maksimum istifadə olunur. Ekskavator-buldozer, avtonəqliyyat vasitələri digər texnikalar təcrübəli mexanizatorların istifadəsindədir ki, bu da bu görülən işlərin yüksək səviyyədə aparılmasına imkan yaradır. Onu xüsusilə demək yerinə düşər ki, rayon icra hakimiyyəti və Meliorasiya və Su Təsərrüfatı ASC rəhbərliyi bu işdə həmişə yaxından dəstək olur. Melioratorçular bu diqqət və qayğının müqabilində daha da əzmlə çalışır.

Sonda, idarə rəhbəri əminliklə bildirdi ki, Samux Rayon Suvarma Sistemləri İdarəsinin kollektivi qarşıya qoyulmuş vəzifələrin uğurla yerinə yetirilməsində var qüvvəsi ilə çalışacaq və yüksək nailiyyətlərə imza atacaqdır.

**Zabit XƏLİLOV,**
**"Respublika".**